DOI: https://doi.org/10.36719/2706-6185/37/89-97

**Əbdülhüseyn Zamanov**
Naxçıvan Dövlət Universiteti
ebdul@gmail.com
https://orcid.org/0009-0003-2523-3505

# AZƏRBAYCANDA İNNOVASİYAYÖNÜMLÜ İQTİSADİYYATIN İNKİŞAFINDA NAXÇIVAN İQTİSADİ RAYONUNUN YERİ VƏ ROLU

**Xülasə**

Məqalədə Naxçıvan iqtisadi rayonunda yaxın illər ərzində təhsil, elm və digər intellektual sahələrdə ciddi dönüş yaratmaq istiqamətində atılan addımlardan, informasiya və bilik iqtisadiyyatının qurulması prosesinin sürətləndirilməsinə nail olunmasından bəhs edilmişdir. Tədqiqat işində muxtar respublikada innovasiyayönümlü iqtisadiyyatın bütün sahələrinin inkişafı, elmi-texniki infrastrukturun modernləşdirilməsi, elmin, təhsilin və istehsalın inteqrasiyasının təmin edilməsi, idarəetmə strukturunun təkmilləşdirilməsi, innovasiya infrastrukturunun yaradılması, texnoparkların, biznes mərkəzləri şəbəkəsinin yaradılması, onların müasir vəziyyətinin tədqiqi problemlərinin öyrənilməsi və bu istiqamətdə işlərin aparılması bir məqsəd kimi qarşıya qoyulmuşdur.

Məqalədə Naxçıvan iqtisadi rayonunda son illərdə əldə olunmuş nailiyyətlər, eyni zamanda mövcud problemlər kompleks şəkildə araşdırılmış, region iqtisadiyyatının gələcək inkişafının investisiya cəlbediciliyini artırmaqla, sürətli inkişafı təmin etməyi, daxili bazarın tələbatının ödənilməsi və əhalinin rifah halının yaxşılaşdırılması məsələlərindən bəhs edilmişdir.

Araşdırmada başlıca məqsədlərdən biri də "qara qızıl" sərvətini intellektual sərvətə çevirməkdir. Digər əsas məqsəd isə elm və innovativ layihəli yeni fikir və ideyaların dəstəklənməsi hesabına iqtisadiyyatın dayanıqlı və davamlı inkişafının sürətləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasına nail olmaqdır.

***Açar sözlər:*** *texnologiya, innovasiya, texnopark, rəqabətqabiliyyətli, davamlı inkişaf*

**Abdulhuseyn Zamanov**
Nakhchivan State University
ebdul@gmail.com
https://orchid.org/0009-0003-2523-3505

## Innovation-oriented economy in Azerbaijan location and role of Nakhchivan economic district in the development

**Abstract**

The article talks about the steps taken in the direction of creating a serious turn in education, science and other intellectual fields in the Nakhchivan economic region, and the acceleration of the process of building the information and knowledge economy. In the research work, the development of all areas of the innovation-oriented economy in the autonomous republic, the modernization of the scientific and technical infrastructure, the integration of science, education and production, the improvement of the management structure, the creation of the innovation infrastructure, the creation of a network of technology parks, business centers, the study of the problems of researching their modern state and the work in this direction is set as a goal.

One of the main goals in the research is to turn the "black gold" wealth into intellectual wealth. Another main goal is to accelerate the stable and sustainable development of the economy, and to achieve an increase in the production of competitive and export-oriented products due to the support of new ideas and ideas with science and innovative projects.

In the article, the achievements achieved in the Nakhchivan economic region in recent years, as well as the existing problems, the future development of the regional economy by increasing

investment attractiveness, ensuring rapid development, meeting the needs of the domestic market and improving the welfare of the population were discussed.

***Keywords:*** *technology, innovation, technological park, competitiveness, sustainable development*

## Giriş

XXI əsr dünya Dördüncü Sənaye İnqilabına ("SƏNAYE 4.0") qədəm qoyur. Müasir şəraitdə davamlı iqtisadi artıma nail olmaq üçün iqtisadiyyatın bütün sahələri modern texnologiyalarla yenilənməlidir. "SƏNAYE 4.0" Rəqəmsal texnologiyaların inkişafı müəssisələrin rəqabət qabiliyyətini artırır, bazarda yeni innovativ məhsul və xidmətlər üçün meydan açır.

Azərbaycan iqtisadiyyatında da dayanıqlı və davamlı iqtisadi artıma və iqtisadi böyüməyə nail olmaq üçün modernləşdirilmiş texnoloji yeniliklərə daha çox zərurət yaranır.

Ölkəmiz müasir dövrün çağırışlarına cavab vermək, iqtisadi inkişafda yeni hədəflərə çatmaq üçün innovativ inkişaf istiqamətində bir sıra addımlar atmışdır. Prezident İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında milli innovasiya sisteminin formalaşdırılması ilə bağlı əsas hədəflər müəyyən edilmişdir. Müasir innovativ texnologiyaya əsaslanan sənaye və texnologiya parkları, sənaye məhəllələri, innovasiya layihələri, Elektron hökumət və s. fondlar yaradılmışdır (1).

Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas məqsədi neft gəlirlərindən daxil olan vəsaitlə qeyri-neft sahələrinin inkişaf etdirilməsi, davamlı iqtisadi artıma nail olunması və iqtisadiyyatın şaxələndirilməsidir .

Dövlətimizin iqtisadi inkişaf strategiyasında qarşıya qoyulan məqsədlərə nail olmaq üçün iqtisadiyyat daxilində innovasiyaların tətbiqini genişləndirmək güclü motivasiya mexanizmlərinin yaradılmasını və inkişaf etdirilməsini nəzərdə tutur. Çünki innovasiyaların tətbiqi iqtisadi prosesə müsbət təsir göstərə bilər. Dünya təcrübəsində innovasiyalar çox vaxt mövcud məhsulların təkmilləşdirilməsi və ya tamamilə yeni bilikləri dəstəkləyən bir məhsul, proses və iş modelidir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bildirilir ki, "innovasiya fəallığını artırmaq, yenilik üçün lazımi mexanizmləri yaratmaq, innovasiya potensialının səmərəli istifadəsini və inkişafını təmin etməklə rəqabətqabiliyyətli məhsulların yığılmasını stimullaşdırmaq üçün dövlət dəstəyi tədbirləri həyata keçiriləcəkdir və müvafiq qanunvericilik yaradılacaqdır" (1).

Müasir dünya bazarında əmtəə istehsalçıları arasında kəskin rəqabətin olduğunu nəzərə almaqla, buraxılan milli məhsulun rəqabətqabiliyyətini əhəmiyyətli dərəcədə yüksəltmək, həmçinin ölkə regionlarının yerli müəssisələrin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəlməsi, elmi-texniki tərəqqinin sürətlənməsini təmin etməlidir. Mövcud sosial-iqtisadi durum nəzərə alınmaqla, dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olmaq üçün açıq milli iqtisadi sistemin formalaşdırılması məqsədəuyğundur. Bu, isə strategiyanın həyata keçirilməsi üsulu kimi, struktur-investisiya və xarici iqtisadi siyasətlərin sintezinə gətirib çıxarmalıdır.

Bazar iqtisadiyyatı şəraitdə milli iqtisadiyyatın tarazlı inkişafa nail olmaq üçün regionların iqtisadi inkişafını təmin edən innovasiya fəaliyyətinin yaradılması və onun səmərəli formalaşması əsas hesab edilir. Regionların iqtisadiyyatının dinamik və davamlı inkişafının təmin edilməsi innovasiya mühitinin formalaşdırılmasından asılıdır (Abbasov, Balayev, İbrahimov, 2023).

İnnovativ iqtisadiyyata keçid, yüksək texnologiya və innovasiyaların tətbiqi bazanın davamlı yenilənməsi məhsul və xidmətlərin rəqabətqabiliyyətini artırmaqla dünya bazarlarına çıxarılmasında innovasiyalar mühüm əhəmiyyətə malikdir. Azərbaycanın iqtisadi siyasətində innovasiya və innovativ iqtisadiyyatın qurulması əsas məsələlər kimi göstərilir. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" haqqında Fərmanı ilə təsdiqlənən strateji sənədlərdə innovasiyalara geniş yer verilir. Qarşıya qoyulan bu mühüm və taleyüklü məsələlərin uğurlu icrasında, regionların iqtisadiyyatına yetərli investisiyaların elmi texniki tərəqqinin son nailiyyətlərinin yönəldilməsi böyük əhəmiyyət daşıyır. Respublikamızın sosial-iqtisadi inkişafında mərkəzlə yanaşı, regionlar da yerli xammaldan texnoloji innovasiyaların təsirlərindən istifadə

etməklə yüksək keyfiyyətli məhsul istehsal edilməsində mühüm rol oynayırlar (3). Bu inkişafda Naxçıvan iqtisadi rayonunun özünəməxsus yeri vardır.

Naxçıvan iqtisadi rayonunun zəngin xammal və resurs potensialının mövcudluğu, iqlim şəraiti, enerji mənbələri, sənayesi, kənd təsərrüfatı, inkişaf etmiş nəqliyyat şəbəkəsi sosial-iqtisadi inkişafında mühüm rol oynamaqla iqtisadiyyatın çoxşaxəli inkişafına səbəb olmuşdur.

Naxçıvan iqtisadi rayonunda icrası uğurla başa çatan dövlət proqramları və ayrılıqda qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" haqqında sərəncamlar, çoxsaylı proqramlar sənaye və aqrar-emal sahələrinin, sənaye məhəllələrinin yaradılmasına, innovativ sahibkarlığın inkişafına təkan verib, məhsul istehsalı və xidmət infrastrukturları fəaliyyətə başlamışdır. Mövcud istehsal müəssisələrinin modern şəraitdə qurulması istiqamətində aparılan uğurlu və sistemli islahatlar qeyri-neft sahəsinin sürətli inkişafına təkan verməklə iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasına və onun coğrafiyasının genişlənməsinə yeni üfüqlər açmışdır (4).

Naxçıvan iqtisadi rayonunda son illərdə müasir elmi bilik və ideyaların, kəşf və ixtiraların nəticəsinə əsaslanan innovasiya sahələrinin genişləndirilməsi, elmi tədqiqat və yeni texnologiya üzrə innovativ layihələrin dəstəklənməsini təmin etmək məqsədi ilə 19.09.2019-cu il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi yanında Elmin İnkişafı Fondu yaradılmışdır (5). İntellektual kapital genişləndikcə yeniliklərin miqyası artır, yeni-yeni sənaye məhəllələrinin və texnoparkların biznes şəbəkələri yaradılır. Açıq iqtisadiyyat şəraitində müştərək müəssisələrin birgə fəaliyyəti ilə innovasiyalı və rəqabətqabiliyyətli məhsullarla ixracı artırmaq mümkündür. Müasir dünya üçün beynəlxalq innovasiya şəbəkələrinin formalaşması, müxtəlif ölkə və korporasiyaların elmi-texniki tədqiqat və innovasiyayönümlü birgə fəaliyyət istiqaməti xarakterikdir (6). Bu istiqamətdə yeni və müasir məhsul növləri ilə dünya bazarına çıxma imkanları artmaqdadır. Regionun iqtisadi inkişafının sürətləndirilməsi, yeni innovasiya və rəqabətqabiliyyətli, ixracyönümlü məhsul istehsalının artırılması təmin edilməkdədir.

Elmin inkişaf strategiyasının əsas istiqamətlərindən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində texnoparkın yaradılmasıdır. Universitet texnoparklarının yaradılmasının 3 əsas məqsədi olur: Elmi biliklərin toplanması, elmi işlərə tələbələrin cəlb edilməsi prosesinin yüksəldilməsi və yeni biliklərin axınının təmin edilməsindən ibarətdir. Ali təhsil müəssisəsinin köməkliyi ilə rəqabətqabiliyyətli kadrlar hazırlamaq mümkün olur. Yüksək elmi potensiala malik kadrlar müxtəlif elmi və biznes ideyalar irəli sürür, texnoparklarda öz ideyalarını praktik olaraq gerçəkləşdirməkdir .

Postindustrial dövrün qeyri-müəyyənliyindən doğan çağırışlara adekvat cavab vermək əsasında bilik iqtisadiyyatı yaranmışdır. Bilik iqtisadiyyatına əsaslanan müasir dövr elm və innovasiya biliklərinin artırılmasını və onun əqli kapitala çevrilməsin nəzərdə tutur. Bu baxımdan muxtar respublikada STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) Mərkəzi yaradılıb. Naxçıvan iqtisadi rayonunda olan 212 məktəbdən 156-da STEAM kabinetləri yaradılıb, ixtisas təmayüllü məktəblərdə, Heydər Əliyev adına Hərbi Liseydə və digər məktəblərdə də STEAM kabinetlərinin yaradılmasına başlanılıb. Təlimlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində150 müəllim, Naxçıvan Təhsil Nazirliyində isə 60 müəllim STEAM hazırlıq kursları keçmişdir. Təlim mərkəzində, yeni rəqəmsal texnologiyalar, innovativ biznes modellərinin, müxtəlif mühəndislik ideyalarının reallaşmasına da dəstək göstərəcək (7).

Naxçıvan iqtisadi rayonunda 2023-cü ilin may ayında vətəndaşlara xidmət və sosial innovasiyalar üzrə Dövlət Agentliyinin nəzdində "ASAN xidmət" mərkəzi region əhalisinin xidmətinə verilib. Naxçıvan "ASAN xidmət" mərkəzi müasir avadanlıqlarla təmin olunmaqla, region əhalisini innovativ yeniliklərə əsaslanan bank, daşınmaz əmlakın qeydiyyatı, sığorta, kommunal və digər xidmətlər də daxil olmaqla "bir pəncərə" prinsipi ilə şəffaf və operativ qaydada 360-dan çox xidmət həyata keçirir (8).

Ölkə prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvan iqtisadi rayonunda "Şərur Sənaye Məhəlləsi" yaradılmışdır. Fərmanın işlənib hazırlanması Naxçıvan iqtisadi rayonunun imkanlarının səfərbərliyə alınmasını şərtləndirir. Regionun iqtisadi resurslarından səmərəli istifadə etmək üçün Şərur Sənaye Məhəlləsində 3 istehsal korpusu, 3 mərtəbədən ibarət

inzibati bina və həmin inzibati binada 24 istehsal sexi quraşdırılmışdır. İstehsal korpuslarında yeyinti və yüngül sənaye məhsullarının istehsalı üçün müəssisələr yaradılır. İlkin olaraq şirniyyat, polietilen torbalar, tütün, ayaqqabı və müxtəlif məhsulların istehsalı istiqamətində işlər aparılır (9).

Ölkəmizin daxili siyasəti modernləşməyə əsaslanan iqtisadi potensialı, öz xalqına və millətinə sonsuz diqqət və ifadəsi olan meyarlara istiqamətləndirilmişdir. Bunu isə, eyni zamanda yeni məzmunlu informasiya cəmiyyətinə keçid dövrü kimi də dəyərləndirmək mümkündür. Qloballaşan dünyada iqtisadi münasibətlərin dərinləşdiyi və genişləndiyi bir şəraitdə həyata keçirilən modernləşmə prosesi bazar subyektlərinin inkişafının əsas amili kimi çıxış edir. Bununla yanaşı, həmin proses həm milli, həm də transmilli müstəvidə çağdaş bazar münasibətlərinin təkmilləşməsinə təkan verir və elmi-texniki tərəqqi meyillərinin sürətlə artmasında əks olunur.

Naxçıvan MR-də müasir texnologiya və modern avadanlıqlarla təchiz edilmiş müəssisələr, istehsal və qeyri-istehsal infrastrukturları (nəqliyyat, enerji təchizatı, rabitə kommunikasiya, yol, mənzil tikintisi, təhsil, səhiyyə və s.) güclənən rəqabətqabiliyyətli və bu kimi digər üstünlükləri ilə dinamik inkişafı təmin edən bu obyektlərin ardıcıl olaraq istifadəyə verilməsi qururverici inkişaf göstəricisinə çevrilmişdir. Naxçıvan iqtisadi rayonu sosial-iqtisadi inkişafı ilə uzun illərin blokada şəraitini və koronavirusun təsir və təhdidlərini sıfıra endirmiş, özünün dayanıqlı iqtisadiyyatı ilə güclü mövqe ortaya qoymağı bacarmışdır.

Ötən illər ərzində Naxçıvan iqtisadi rayonunda regional dövlət proqramlarının uğurla həyata keçirilməsi makroiqtisadi göstəricilərin daha da yaxşılaşdırılmasına, sahibkarlığın və özəl sektorun inkişafına investisiya qoyuluşlarının artmasına, infrastrukturun yaxşılaşmasına, əhalinin məşğulluq səviyyəsinin atmasına, yoxsulluğun azalmasına, həyat şəraitinin yaxşılaşmasına səbəb olmuşdur. Dövlət Proqramlarının yerinə yetirilməsi öz təsirini ÜDM artım tempində daha aydın göstərdi.

**Cədvəl.**
**Naxçıvan Muxtar Respublikasının 2005-2022-ci illər ərzində sosial-iqtisadi inkişaf göstəriciləri (milyon manatla)**

| İllər / Göstəricilər | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 305,7 | 1171,3 | 2467,4 | 2773,0 | 2839,6 | 2907,8 | 3016,3 | 2990.1 |
| Sənaye məhsulu | 41,2 | 318,5 | 916,8 | 990,0 | 1014,9 | 1040,4 | 1069,6 | 1048,5 |
| Əsas kapitala yönəldilən vəsaitlər | 126,0 | 501,1 | 951,2 | 1017,0 | 1029,2 | 1041,0 | 1062,1 | 995,9 |
| Kənd təsərrüfatı məhsulu | 98,2 | 247,1 | 402,9 | 480,0 | 507,66 | 537,5 | 573,3 | 590,6 |
| Nəqliyyat sektorunda yük daşınması (min ton) | 7,0 | 11,1 | 15,9 | 16,6 | 16,9 | 16,7 | 16.9 | 16.9 |
| İnformasiya və rabitə xidmətləri | 9,0 | 36,5 | 46,9 | 51,3 | 52,7 | 55,5 | 59,3 | 60,3 |
| Pərakəndə əmtəə dövriyyəsi | 147,9 | 616,4 | 1276,9 | 1702,0 | 1725,8 | 1737,7 | 1790,4 | 1819,4 |
| Əhaliyə göstərilmiş ödənişli xidmətlər | 26,3 | 107,2 | 195,8 | 239,9 | 242,7 | 243,5 | 249,9 | 253,0 |
| ÜDM hər 1 nəfərə düşən həcmi (manat) | 807.3 | 2882,3 | 5581,1 | 6101,3 | 6201,5 | 6310,4 | 6524,6 | 6440,1 |
| Orta aylıq əmək haqqı (manat) | 86,0 | 302,6 | 399,5 | 433,0 | 484,8 | 535,8 | 553,6 | 611,4 |

Mənbə: ARDSK – https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Cədvəlin təhlilindən görünür ki, iqtisadiyyatın əsas sahələrinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini vermişdir. Belə ki, 2010-cu ildə ilk dəfə olaraq ÜDM-in həcmi 1 milyard 171,3 milyon manat olmuşdur. Bu göstərici 2005-ci illə müqayisədə 3,8 dəfə çox, onun hər bir nəfərə düşən həcmi isə 2882,3 manata və ya müqayisə olunan dövrə nisbətən 3,5 dəfə çox artmışdır.

2015-ci ildə ÜDM həcmi 2010-cu illə müqayisədə 2,1 dəfə artaraq 2 milyard 467,4 milyon manat olmuşdur. Onun bir nəfərə düşən həcmi 5581,1 manat təşkil etmişdir ki, bu da 2010-cu ilə nisbətən 1,9 dəfə çoxdur. Dinamikadan da görünür ki, ÜDM həcmi illər üzrə artan ardıcıllıqla davam etməkdədir. 2022-ci ildə ÜDM-in həcmi 2005-ci ilə nisbətən 9,7 dəfə artaraq 2 milyard 990,1 milyon manata çatmışdır. ÜDM adam başına düşən həcmi 2005-ci ilin müvafiq dövrünə nisbətən 7,9 dəfə çox artaraq 6440,1 manata olmuşdur.

İqtisadi təhlil göstərir ki, bütün sahələr üzrə sosial-iqtisadi inkişaf artan templə davam etməkdədir. Əldə olunmuş uğurlu nəticələr sosial-iqtisadi inkişafı xarakterizə edən əsas makroiqtisadi göstəricilərin daha da yaxşılaşdırılmasına zəmin yaratmışdır. Cədvəldən göründüyü kimi, əsas kapitala yönəldilən vəsait 2005-ci ilə nisbətən 7,8 dəfə çox artmaqla 2022-ci ildə 995,9 milyon manata çatmışdır. Pərakəndə əmtəə dövriyyəsi 2005-ci ilə nisbətən 12,3 dəfə çox, 2021-ci ilə nisbətən 1,6 % artaraq 2022-ci ildə 1 milyard 819,4 milyon manata çatmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin də səviyyəsi artaraq 2005-ci ilə nisbətən 9,7 dəfə çox, 2021-cu ilə nisbətən 1,6 % artaraq 2022-ci ildə 253,0 milyon manata çatmışdır.

XXI əsrin əvvəllərində muxtar respublikada sənaye potensialının müntəzəm olaraq yeni texnologiya və avadanlıqlarla gücləndirilməsi öz bəhrəsini verməkdədir. Fəaliyyət göstərən sənaye müəssisələrinin istehsalının həcmindəki dəyişiklik sənaye məhsulunun dinamik artım tempində öz əksini tapır.

Naxçıvan iqtisadi rayonunda milli sahibkarlığın təsərrüfat fəaliyyətinin inkişaf üçün lazım olan əlverişli mühitin yaradılması, mövcud təbii ehtiyatlardan və xammaldan səmərəli istifadə olunması qeyri-neft sənayesi sahələrinin dinamik inkişafına şərait yaratmışdır.

Görülən işlərin nəticəsidir ki, muxtar respublikada sənaye məhsulu 2005-ci illə müqayisədə 25,4 dəfə çox, 2015-ci ilə nisbətən 14,3 % çox artmaqla 2022-ci ilə 1 milyard 048,5 milyon manat həcmində istehsal edilmişdir. Qeyd etmək lazımdır ki, muxtar respublikada yeni sənaye müəssisələrinin yaradılması istiqamətində görülən tədbirlər nəticəsində 2022-ci ildə istehsal və sənaye müəssisələrinin sayı 109, çalışanların orta sayı isə 16763 nəfər olmuşdur.

Göründüyü kimi, iqtisadı artımın əsas hərəkətverici qüvvəsi və məcmu tələbin tərkib hissəsi olan investisiya qoyuluşlarında son bir neçə ildə ciddi dəyişikliklər müşahidə edilmişdir. Sahibkarlıq fəaliyyəti üçün investisiya mühitinin yaradılması nəticəsində son illərdə investisiyaların ümumi həcmində daxili investisiyaların həcmi xeyli artmışdır.

Həyata keçirilən məqsədyönlü tədbirlərin uğurla davam etdirilməsi və aparılan tikinti-quraşdırma işləri sayəsində Naxçıvan iqtisadi rayonunun bütün kəndlərinin və onun paytaxtı Naxçıvan şəhərinin simasını tamamilə dəyişmiş, yeni və müasir bir Naxçıvan qurulmuşdur. Naxçıvan Muxtar Respublikasında bu illər ərzində yeni tikilmiş və ya təmir edilmiş obyektlərin sayı 500-ü keçmiş, istifadə edilən obyektlərin 85 %-i sosial xarakterli olmuşdur. Həyata keçirilən işlərin həcminin artması öz növbəsində tikinti sektoruna əsaslı kapital qoyuluşunun həcminin də artmasına səbəb olmuşdur.

Əsas istehsal fondlarının təkrar istehsalına yönəldilən investisiyalar məhsul bolluğu yaradan əsas amildir. Təhlildən də görünür ki, əgər 2005-ci ildə bütün maliyyə mənbələri hesabına 120,4 milyon manatlıq investisiyadan istifadə edilmişsə, 2022-ci ildə 995,9 milyon manat vəsaitdən istifadə olunmuşdur ki, bu da 2005-ci ilin göstəricisindən 8,2 dəfə çoxdur. İnvestisiya qoyuluşunun həcminin artması Naxçıvan iqtisadi rayonunda dayanıqlı və tarazlı inkişafın təmin edilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir.

Tikinti sektorunun fəaliyyəti çoxşaxəli olduğundan bir sıra xarakterik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyət başlıca olaraq tikintinin qəsəbə və kəndlər arasında mütənasib şəkildə aparılmasıdır. 2011-ci ildən kəndlərdə tikilən kənd mərkəzləri ilə yanaşı, xidmət mərkəzi, məktəb binası, feldşer

mama məntəqəsi (ambulatoriya), rabitə, poçt, yol və digər infrastrukturlarla birlikdə kompleks abadlıq işləri aparılmışdır. Əsas kapitala investisiya qoyuluşlarının həcmi 2022-ci ildə bütün maliyyə mənbələri hesabına 995,9 milyon manatı ötmüşdür. Regionlarda quruculuq işlərinin genişləndirilməsi iqtisadiyyatın tarazlı şəkildə inkişafı nəticəsində kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasını təmin etməkdən ibarət olmuşdur.

Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca şərti kənd təsərrüfatının inkişaf etdirilməsidir. Aqrar-sənaye sektoru insan həyatı üçün zəruri olan istehlak məhsullarına olan tələbatının ödənilməsində mühüm əhəmiyyətə malikdir. Bu baxımdan kənd təsərrüfatı məhsullarının istehsal həcminin ilbəil dinamik şəkildə artması, əhalinin ərzaq məhsullarına, yeyinti sənayesinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsi, dövlət ehtiyatlarının yaradılması nəticəsində taxılı uzun müddət saxlamağa imkan verən anbarların, kənd təsərrüfatı məhsullarının isə təzə halda istehlakçılara çatdırılmasını təmin edən soyuducu anbarların istifadəyə verilməsi muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına əlverişli şərait yaradıb.

Naxçıvan iqtisadi rayonunun iqtisadiyyatının əsas sahəsini təşkil edən kənd təsərrüfatı cəmiyyətin zəruri ehtiyaclarının ödənilməsində strateji əhəmiyyət daşıdığından bu sahədə ardıcıl tədbirlər sisteminin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə aparılan islahatlar və həyata keçirilən dövlət proqramlarının uğurlu icrası nəticəsində kənd təsərrüfatının mövcud potensialının daha da artırılması və uzunmüddətli dövr ərzində davamlı inkişafı təmin edilmişdir. İqtisadi və ərzaq təhlükəsizliyin əsas sahəsi olan aqrar sektor müasir inkişaf dövründə öz aktuallığını saxlamaqdadır. Naxçıvan MR-də kənd təsərrüfatının inkişafı istiqamətində bir sıra işlər yerinə yetirilməklə, aqrar siyasətin və yeni təsərrüfatçılıq formalarının düzgün qurulması ölkə iqtisadiyyatına öz töhfəsini verməkdədir. Cədvəlin rəqəmlərinə nəzər salsaq görərik ki, 2022-ci ildə kənd təsərrüfatı sahələrindən ümumilikdə 590,6 milyon manat həcmində məhsul istehsal olunmuşdur ki, bu da 2005-ci ildə istehsal olunan məhsuldan 6,0 dəfə çox və ya 492,4 milyon manat çoxdur. ÜDM həcmində isə kənd təsərrüfatı məhsullarının ümumi həcmi artaraq 19,7 % təşkil etmişdir.

Yaşadığımız həyatın artan tələbləri sürətlə inkişaf edən elektron ödəmə sistemlərinin qurulmasını və ondan istifadəni qaçılmaz edir, eyni zamanda bu sahənin yüksələn xətlə inkişafına imkan yaradır. Elektron pul köçürmə sistemləri onlayn ödəməni günün istənilən vaxtında həyata keçirməyə imkan verir.

Son illər muxtar respublika infrastrukturuna yeni nəsil kommunikasiya texnologiyalarının tətbiqi əsasında kommunal xidmətlərlə yanaşı, sosial ödənişlər, pensiyalar, üzvlük haqları, cərimələr, Hökumət Ödəniş Portalının şəbəkəsinə qoşulmaqla bank, kredit, vergi və digər ödənişlər POS terminallar, ATM, Pay Point vasitəsi ilə həyata keçirilir.

Müasir texnologiyaların inkişafı e-imzaların artmasına, fiber-optik kabel xətlərinin yenilənməsi əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, geniş zolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin mobil rabitə şəbəkəsi uğurla fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikasının dayanıqlı və davamlı inkişafında nəqliyyat mühüm rol oynayan amillərdən biridir. Muxtar respublikanın iqtisadiyyatında dəmir yol nəqliyyatının rolu böyükdür. Hazırda Zəngəzur dəhlizinə aid olan dəmir yolunun 47 kilometri ermənilərin işğalı altında olması Naxçıvan mənşəli məhsulların xarici bazarlara çıxışını məhdudlaşdırır, bu da regionun sosial-iqtisadi inkişafa mənfi təsir göstərir. Zəngəzur dəhlizi təkcə siyasi və hərbi cəhətdən deyil, eyni zamanda ticarət baxımından da çox vacibdir. Keçmiş sovetlər birliyi dövründə Bakı-Yerevan dəmir yol xəttinin işləməsi Naxçıvanın iqtisadiyyatının inkişafına səbəb olmaqla pambıqçılığın, üzümçülüyün, meyvəçiliyin, bostan-tərəvəz məhsullarının və şərabçılığın inkişafına müsbət təsir göstərmişdir. Bu dəhlizin açılması ilə Naxçıvan iqtisadi rayonu Azərbaycanın qərb rayonlar ilə quru və dəmir yolu xətti açılacaq, həmçinin dünya bazarına çıxış imkanları əldə etmiş olacaqdır.

Naxçıvan iqtisadi rayonunun bugünkü inkişafı baxımından demək olar ki, qloballaşma meyarlarına və modernləşməyə əsaslanan məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyat şaxələndiriləcək, innovasiyalı iqtisadiyyata keçid təmin edilməklə iqtisadiyyatın bütün sahələrində dinamik artım əldə olunması üçün geniş imkanlar yaranacaqdır. Onu da bildirmək lazımdır ki, qloballaşmanın

hökm sürdüyü müasir dünyada iqtisadiyyat çox sürətlə istiqamət dəyişdirməkdədir. Bu, ilk növbədə şirkətlərin müştəri məmnuniyyətini artırmaq üçün yol verilən itkilərin və nəqliyyat xərclərinin azaldılması ilə bu uğura nail olmağın tərəfdarıdırlar. Bütün bunlar isə tədarük zəncirinin düzgün qurulmasından xeyli asılıdır.

Naxçıvan iqtisadi rayonunda səmərəli fəaliyyət göstərmək istəyən hər bir iqtisadi subyekt istehsal və xidmət prosesində keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini təmin etməlidir. Bunun üçün yeni texnikaların tətbiq edilməsi innovasiyaların əsas istiqamətlərindən hesab edilir. Regionda yeni biliklərə əsaslanan innovasiyaların inkişafı bütövlükdə milli innovasiya sisteminin formalaşmasından asılıdır. Qlobal rəqabət mühitində inkişaf etməkdə olan qeyri-neft sənayesi ənənəvi sahələrlə yanaşı, yeni məhsul istehsalı üzərində qurulan müasir tipli sahələrin yaranması ilə də xarakterizə olunmalıdır.

İqtisadi sahədə əldə olunmuş uğurlu nəticələr onu göstərir ki, regionda sahibkarlıq fəaliyyəti üçün bütün münbit imkanlar yaradılmış, rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalı ilə bağlı məsələlərin tənzimlənməsi üzrə qanunvericilik bazası formalaşmışdır. Fikrimizcə, regionun qarşısında duran vəzifələr icra olunduqca, onun gələcək inkişaf üçün yeni imkanlar yaranacaqdır.

Regionda davamlı iqtisadi inkişafın əsası elm-texniki tərəqqinin nailiyyətlərinin tətbiqinə və yeni modern texnologiyalarla silahlanmaya əsaslanır. Qeyd etdiyimiz bu fakt yüksək ixtisaslı, peşəkar kadrların və intellektual qabiliyyətli insanların yetişdirilməsini zəruri edir. Muxtar respublikada ötən dövr ərzində əldə edilmiş sosial-iqtisadi nailiyyətlər qeyri-neft sektorunun davamlı inkişafının bariz nümunəsidir.

Sahibkarlığa dövlət himayəsinin sistem şəklində həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsi hesabına Naxçıvanda son illər ideyanı yeni məhsullara və ya xidmətlərə çevrilməsini həyata keçirən bir sıra özəl şirkətlər yaranmışdır. Mövcud ehtiyatlardan maksimum istifadə edərək, regionda mineral sular zavodu, sement zavodu, kərpic zavodu, travertin daş üzləmə zavodu, plastik qapı-pəncərə, gəc istehsalı sexləri, avtomobil zavodu, kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssislərinin yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının qurulması, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmiri sexinin tikintisi, avtomobil yollarının yenidən qurulması, Günəş Elektrik Stansiyasının, Su Elektrik Stansiyasının tikintisi, meliorasiya və irriqasiya tədbirləri, kanalizasiya və sutəmizləyici qurğular, bir sıra yüngül və yeyinti sənayesi müəssisələri yaradılmış, həmçinin bu sahələr üzrə yeni infrastrukturlar fəaliyyətə başlamışdır. Naxçıvanın əsas ixrac məhsulları arasında tanınmış brend kimi ölkəmizi xarici bazarlarda tanıdan "Badamlı" və "Sirab" mineral sularını, yüksək keyfiyyətli tikinti materiallarını, ekoloji cəhətdən təmiz təbii duzu, emal olunmuş ət məhsullarını, spirtli və qazlı aromatlaşdırılmış içkiləri, vafli məmulatlarını, təzə meyvə və meyvə şirələrini misal göstərmək olar.

Naxçıvan MR-də milli iqtisadiyyatın inkişafına təsir göstərən perspektivli sahələrdən biri də beynəlxalq turizmdir. Bu sahədə çox əhəmiyyətli potensial mövcuddur. Tarixi və mədəni abidələr, sanatoriya, kurort sağlamlıq sahələri, göz oxşayan mənzərəli yerləri xarici vətəndaşların diqqətini daha çox cəzb etməkdədir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası əlverişli təbii coğrafi şəraitdə yerləşdiyindən Tarixi İpək yolu və ticarət karvanları bu ərazidən keçməklə Qərb və Şərq sivilizasiyasını birləşdirən bir mərkəzə çevrilmişdir. Naxçıvan zəngin tarixi dövlətçilik ənənələrinə malik olduğundan qədim zamanlardan qonşu ölkələrlə tarixi milli mənəvi dəyərləri və iqtisadi əlaqələri olmuşdur.

Naxçıvanın ixrac potensialının artmasına yay və qış turizm mövsümünün başlanmasında olan canlanmanın da mühüm əhəmiyyəti vardır. Belə ki, regionda təbiət abidələrinə İlandağ, Sarıqaya dağı, Nəhəcir, Əshabi-Kəhf ziyarətgahı, Pəzməri şəlaləsi, Gəmiqaya, hidroloji abidələr, Göygöl, Batabat, Darıdağ istirahət mərkəzi, Duzdağ müalicə mərkəzi, tarixi abidələrin qorunması və orijinallığını saxlanması yerli və xarici turistlərin axınına şərait yaranıb.

Regionda iqtisadi artımın dayanıqlı inkişafı üçün ənənəvi inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçmək əsas prioritetlərdən hesab olunur. Qabaqcıl təcrübəyə əsasən innovasiyalı inkişaf modeli xammal yönümlü ixracdan elm tutumlu sahələrin inkişafına keçidi təmin edə bilər.

Bu istiqamətdə regionda innovasiyalı inkişaf modelinə keçidi zəruri edən əsas amillər kimi aşağıdakıları göstərmək olar:

- Naxçıvan iqtisadiyyatında innovasiyayönümlü sahələrdə intellektual və texnoloji imkanların mövcudluğu;
- innovasiya sistemində mütərəqqi ideya metodlarının tətbiqinə əsaslanan çeşidli məhsulların hazırlanması;
- innovasiya fəaliyyətinin səmərəliliyi məqsədilə elm, tədqiqat, istehsal sahələrində qarşılıqlı dəyər zəncirinin formalaşdırılması;
- ixtisaslı kadrlardan və elmi yeniliklərdən səmərəli istifadə etməklə məhsul və xidmətlərin keyfiyyət göstəricilərinin, eləcə də rəqabətqabiliyyətliliyin yüksəldilməsi;

Regionda müəssisələrin və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması məqsədi ilə regionun yeni texnologiyalarının tətbiqi sahəsində olan problemlərin həll edilməsi, innovasiya infrastrukturunun yaradılması və formalaşması prosesinin həyata keçirilməsi əsas məsələlərdəndir.

## Nəticə

Regionda innovasiya prosesinin inkişafının stimullaşdırılmasına yönəldilmiş tədbirlər işlənməli və tətbiq olunmalıdır. Naxçıvan iqtisadi rayonunda innovasiya prosesinin əsas məqsədi region iqtisadiyyatının ayrı-ayrı sahələrini müasir texnologiya ilə təmin etməklə yanaşı, regiona xarici investisiyaları cəlb etməkdir. Bu istiqamətə regionda innovasiya prosesinin stimullaşdırılması məqsədi ilə bir sıra tədbirlər proqramı işlənib hazırlanması zəruridir.

Fikrimizcə, regionda innovasiyaların tətbiqi zamanı müəssisələr bir sıra risklərə məruz qala bilər. Belə ki, bazara çıxarılacaq yeni məhsul və xidmətlərin bazardakı müştərilər tərəfindən qəbul edilməməsi region müəssisələri üçün innovasiya prosesi zamanı əhəmiyyətli maneələr meydana gətirə bilər. Regionda səmərəli fəaliyyət göstərmək istəyən müəssisələr yeni innovasiya yönümlü texnikaları təsərrüfat fəaliyyətinə cəlb etməyə məcburdur. İnnovasiyaların tətbiqi bütünlükdə müəssisələrin texnoloji potensialından tam və səmərəli istifadə edilməsinə gətirib çıxarır.

Naxçıvan iqtisadi rayonunda müasir çağırışlar və yeni təşəbbüsləri nəzərə almaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələrinin, texnoparkların, STEAM mərkəzinin, elektron kommunikasiya sistemlərinin, ASAN xidmətin, sənaye məhəlləsinin yaradılması, regionda qeyri-neft sahələrinin potensialının gücləndirilməsi, iqtisadiyyatın innovasiyalar əsasında inkişafını təmin edəcək.

Regionda yeni biliklər və texnologiyalar, onların sosial-iqtisadi inkişafa səmərəli tətbiqi, innovasiyayönümlü və rəqabətqabiliyyətli məhsulların artırılması bütünlükdə regionun və milli rifahın artırılmasına öz töhfəsini verməkdədir.

Təhlillərə əsaslanaraq elmi texniki tərəqqinin və innovasiyanın müxtəlif istiqamətlərdə araşdırmaların aparılması aşağıdakı nəticələri çıxarmağa imkan verir:

- regionda "Şərur sənaye məhəlləsinin" yaradılmasını sürətləndirmək, formalaşmasında və uğur qazanmasında inkişaf etmiş ölkələrin təcrübəsindən geniş istifadə etmək;
- bütün sahələrdə yeni texnologiya və innovasiyalardan istifadə etməklə məhsuldarlığın artırılmasına nail olmaqla bərabər, bu sahədə elmi-tədqiqat təcrübi işlərdən geniş istifadə etmək;
- regionda innovasiyaların inkişafı istiqamətində yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşdırılması vacibdir;
- regionda innovasiyaların inkişafında investisiya fəallığının artırılmasını həyata keçirmək.

Naxçıvan iqtisadi rayonunda iqtisadiyyatın düşünülmüş siyasət xətti təbii resurslarından səmərəli istifadə etməklə, iqtisadi inkişafa nail olmaq, istehsal sahələrini daha da genişləndirmək, əhalinin həyat şəraitini yaxşılaşdırmaq, məşğulluğu yüksəltmək və ölkə üzrə qarşıya qoyulmuş hədəflərin gerçəkləşməsinə nail olmaqdır.

**Ədəbiyyat**

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.
2. Abbasov, T., Balayev, R., İbrahimov, F. (2023). İnnovasiyalı inkişaf: Rəqəmsal mühitin təşəkkülü və investisiyalaşdırma problemləri. Monoqrafiya. Bakı: ADPU nəşriyyatı, s. 285.
3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
4. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı". 5 iyun 2023-cü il.
5. Naxçıvan Muxtar Respublikası Ali Məclisi yanında Elmin İnkişafı Fondu. *252 s.*
6. Kotel'nikov, N. V., Nagayeva, A. V. (2014). Analiz i perspektivy razvitiya tekhnoparka kak ob"yekta innovatsionnoy infrastruktury. Izvestiya TPU. T. 324, № 7.
7. https://serqqapisi.gov.az/xeberler/naxcivanda-steam
8. https://asan.gov.az/media/press-releases/
9. https://serqqapisi.gov.az/ 12.07.2023
10. ARDSK – https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Göndərilib: 16.05.2024 Qəbul edilib: 13.07.2024